# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin razılaşdırılmış təkliflərini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 21 yanvar tarixli 11 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 41; 2010, № 4, maddə 359; 2012, № 12, maddə 1385; 2013, № 7, maddə 874, № 8, maddə 1010, № 12, maddə 1641; 2015, № 12, maddə 1598; 2017, № 3, maddə 502; 2020, № 9, maddə 1224; 2023, № 1, maddə 148) ilə təsdiq edilmiş “Diplomatik xidmət əməkdaşlarına təminat və kompensasiyaların verilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qaydalara 4 nömrəli əlavə - “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında dövlət məvacibinin, aylıq əlavənin və digər təminatlarla bağlı ödənişlərin həyata keçirildiyi valyutaların növləri”nin cədvəlinə aşağıdakı məzmunda 2.24-1-ci bənd əlavə edilsin:

| | |
|---|---|
| 2.24-1. | Slovakiya Respublikası |

2. Həmin Qaydalara 5 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında işləyən diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən şəxslərin dövlət məvacibinə tətbiq edilən fərqləndirici əmsallar"ın cədvəlinə aşağıdakı məzmunda 73-1-ci hissə əlavə edilsin:

| | | |
|---|---|---|
| 73-1. | Slovakiya Respublikası, Bratislava şəhəri | 2,829 |

3. Həmin Qaydalara 6 nömrəli əlavə - "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyət göstərdikləri müharibə və silahlı münaqişə şəraitində olan xarici dövlətlərin siyahısı"nın cədvəlinə aşağıdakı məzmunda 7-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 7. | İsrail Dövləti |

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 6 noyabr 2023-cü il

№ 407